# Xaçmaz: fındıq bağları genişləndirilir



**Bu gün Xaçmaz ölkəmizin sürətlə və dinamik inkişaf edən rayonlarından biridir. Son illər həm rayon mərkəzində, həm də rayonun ayrı-ayrı kəndlərində görülən tikinti-quruculuq, abadlıq işlərinin miqyası yaxşı mənada heyrət doğrurur. Özü də bütün bu işlər zövqlə, xüsusi səliqə-sahmanla həyata keçirilir.**

Təbii ki, heç bir parlaq uğur quru, boş yerdə əldə olunmur. Xaçmazda son illər bütün sahələrdə qazanılan qələbələrin arxasında dövlətin regionların sürətli inkişafına göstərdiyi davamlı dəstək, eləcə də çox sayda fərdi torpaq mülkiyyətçiləri və əmək kollektivlərinin gərgin əməyi, səriştə və bacarığı dayanır.

Bu məqamda bu yaxınlarda Xaçmazda olarkən tanış olduğum Məmmədağa kişinin ürək sözlərini xatırlayıram:

--Görürsünüzmü, Xaçmaz son illər nə qədər gözəlləşib. Hər yerdə inkişaf, tərəqqi hiss olunur. Bütün bunlar sevimli Prezidentimizin Azərbaycan bölgələrinə göstərdiyi qayğı sayəsində mümkün olur. Allah onu xoşbəxt eləsin!

Xaçmazda görüşdüyüm adamların çoxu məhz həmin Məmmədağa kişi kimi düşünür. Hamı son dövrdə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlardan razılıq edir. Təsadüfi deyil ki, bu il iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlət başçısının çıxışı, tapşırıq və tövsiyələri burada hər kəsdə dərin maraq və rəğbət oyadıb.

Tədbirdə dövlətimizin başçısı bildirib ki, bu il kənd təsərrüfatında rekord göstərici əldə edilib. Aqrar sahə bu ilin altı ayında 13 faiz artıb. Xüsusilə bitkiçilikdə 25 faiz artım olub. Bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini göstərməkdədir.

Bu yerdə Xaçmaz Rayon İcra Hakimiyyətinin saytında tanış olduğum bəzi məlumatlarla oxucuları tanış etmək istəyirəm. Bu günlərdə rayon tarix diyarşünaslıq muzeyində cari ilin altı ayının yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə açan Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev bildirib ki, Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın davamlı inkişafının təmin edir.

RİH başçısının sözlərinə görə Xaçmaz Rayon İcra Hakimiyyətinin rəhbərliyi ölkə Prezidentinin həyata keçirdiyi siyasi xəttə uyğun olaraq, rayonda iqtisadi inkişafı sürətləndirmək, ictimai-siyasi sabitliyi qorumaq, qanunların icrasını təmin etmək üçün



məqsədyönlü tədbirlər həyata keçirmişdir. Hesabat dövründə görülmüş işlər nəticəsində rayonda 950 yeni iş yeri açılmışdır ki, bunlardan 904-ü daimidir.

Məlum olduğu kimi, Xaçmaz rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu ilin altı ayı ərzində kənd təsərrüfatı məhsullarının ümumi həcmi ötən illə müqayisədə xeyli artmışdır. Bu il rayonda 25 min hektar taxıl sahəsinin məhsulunu tez və itkisiz toplamaq mümkün olmuşdur. Məlumat üçün bildirək ki, həmin sahənin 19 min 224 hektarı buğda və 5 min 786 hektarı arpa sahələridir. Son bir ildə əkin sahələri 1 min 212 hektar artmışdır. Taxıl sahələrindən 84 min 273 ton məhsul toplanmışdır. Orta məhsuldarlıq 33,7 sentner olmuşdur.

Xaçmazda bu il sahələrdən rekord miqdarda taxıl məhsulu toplayan qabaqcıl fermerlər çoxdur. Məsələn, fermer Rövşən Şərifov hər hektardan 60 sentnerdən çox məhsul əldə edib. Onun başçılıq etdiyi təsərrüfatın üzvləri 10 hektar sahədə yüksək məhsuldar "Bayraqdar" sortunu yetişdiriblər. Əkin üçün toxum yerli toxumçuluq təsərrüfatından əldə olunub.

R.Şərifovun sözlərinə görə, dövlətimizin, Kənd Təsərrüfatı Nazirliyinin təcrübəli mütəxəssislərinin əməli qayğısı olmasaydı, o, taxılçılıqda bu qədər yüksək məhsuldarlığa nail ola bilməzdi.

**Xaçmazlı fermer dedi:**

--Möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığı ilə müvafiq qurumlar biz fermerlərə hər cür dəstək göstərirlər. Yəni, bizi texnika, mineral gübrələrlə təmin edirlər. Bütün müraciətlərimizə operativ reaksiya verilir. Belə şəraitdə daha yaxşı işləmək, işə can yandırmaq qalır ki, biz fermerlər də öz öhdəmizə düşənləri etməyə çalışırıq.

Son illər rayonda heyvandarlıq sahəsində nəzərəçarpan uğurlar əldə olunur. Hazırda rayonun təsərrüfatlarında 56 min 457 baş qaramal, 62 min 214 baş davar, 339 min 329 baş ev quşları vardır. Rayonda ət və süd istehsalı artmaqda davam edir.

Son dövrdə Xaçmazda meyvə bağlarının sahəsi artırılaraq 22 min hektara çatdırılmışdır. Bu il 3589 hektar sahədə tərəvəz əkilmişdir. Həm meyvə bağlarında, həm də tərəvəz sahələrində məhsul yığımı davam edir. Mütəxəssislərin ümumi rəyi belədir ki, bu il rayon üzrə daha çox meyvə və tərəvəz toplamaq mümkün olacaq.

Yeri gəlmişkən, xaçmazlı fermerlər Bakı və Sumqayıt şəhərlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında fəal iştirak edirlər. Bu il satışa 703 ton meyvə və tərəvəz məhsulu çıxarılmışdır.

Xaçmaz ölkəmizin ən böyük fındıqçılıq rayonlarından birinə çevrilir. Bu sahəyə marağın artmasında Prezident İlham Əliyevin kənd təsərrüfatının ixrac potensialı yüksək sahələrindən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlər mühüm rol oynayır. Bu il rayonda fındıq yığımı avqustun sonunadək davam edib. Göstəricilər çox uğurludur.

Xaçmaz rayonunun Çarxı kəndindən olan fermer Rövşən Şahbazov söylədi ki, onun ailəsinin üç hektara yaxın fındıq bağı var. Qarşıdakı illərdə əkin sahəsini daha da artırmaq barədə düşünür. Çünki fındıqçılıq ən gəlirli sahələrdən biridir. Həm becərilməsi rahatdır, həm də bu məhsula tələbat da çoxdur. Quru məhsuldur deyə xarab olmur. Anbarda saxlayıb istədiyin vaxt sərfəli qiymətə sata bilərsən.

R.Şahbazovun sözlərinə görə, fındıq sahələrinin genişləndirilməsi bağ sahiblərinin rifahının yüksəlməsinə şərait yaradır. Fermer bildirdi ki, 4-5 il əvvəl rayonda iki-üç fındıq qəbulu məntəqəsi var idi. İndi isə həmin məntəqələrin sayı 20-yə çatır. Bundan başqa, fındıq emalı müəssisəsi də yaradılıb. Bir sözlə, fındığa böyük tələbat yaranıb.

**Fermer fəxrlə dedi:**

--Bağımızdan 3 tondan çox fındıq toplamışıq. Bu, 15 min manata yaxın gəlir deməkdir. Tək fındıq əkməmişik. Bağımızda şaftalı, gavalı, alça da var.

Son üç ildə Xaçmaz rayonunda fındıq bağlarının sahəsi iki dəfədən çox artırılaraq 10 min hektara çatdırılıb. Fındıqçılıqla məşğul olan fermerlərin də gəlirləri artır. Digər tərəfdən rayonda yaradılan yeni müəssisələrdə yerli sakinlər işlə təmin olunurlar.

Ümumilikdə, şimal bölgəsinin rayonlarında son 3 ildə 10 min hektardan çox yeni fındıq bağı salınıb. Fındıq istehsalı bu rayonların iqtisadiyyatında mühüm rol oynayır. Hazırda Xaçmaz, Quba, Qusar və Şabranda 20 min hektaradək fındıq bağı var.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

